**“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı 2016-cı il ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən görülən işlər haqqında məlumat**

| № | Tədbirin adı | Qiymətləndirmə indikatorları | İcra / Tövsiyə | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|
| **4.1. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi** | | | | |
| 4.1.1. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi | Prioritetin müəyyən edilmə forması və dəstəklənən layihələrin sayı | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016-2018 |
| 2016-cı ildə Şura tərəfindən QHT-lər üçün 3 qrant müsabiqəsi elan edilmiş və bu qrant müsabiqələri üzrə ictimai həyatın bir sıra aktual məsələləri ilə yanaşı “Açıq hökumətin təşviqi və mədən sənayesində şəffaflığın artırılmasına dair təşəbbüslər”, “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”ndan irəli gələn məsələlər üzrə təşəbbüslər” və “Şəffaflıq və institusional məsələlər” istiqamətlərində də layihə təkliflərinin təqdim edilməsi nəzərdə tutulmuşdur. Müsabiqə nəticələri ilə bağlı Şuranın qərarlarına əsasən qeyd olunan istiqamətləri üzrə 26 qeyri-hökumət təşkilatı qalib elan olunmuşdur. Qalib elan olunmuş 26 qeyri-hökumət təşkilatının layihələrinin icrası üçün Şura tərəfindən 240 000 (iki yüz qırx min) manat vəsait ayrılmışdır. Layihələrin icrasına 121 nəfər cəlb olunmuşdur. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax və Şirvan şəhərlərində, Daşkəsən, Qazax, Ağdaş, Ucar, Şamaxı, İsmayıllı, Bərdə, Tərtər, Zaqatala, Qəbələ, Oğuz, Cəlilabad və Qusar rayonlarında ümumilikdə 28 təlim və 48 tədbir keçirilmişdir. 2016-cı ildə layihələr çərçivəsində 1 adda kitab və “Azərbaycan vəkili jurnalı”, 5 ədəd buklet, 7 ədəd flayer, plakatlar və digər nəşr məhsulları, elektron mediada 15 məqalə çap olunmuş, 9 televiziya verilişi və 1 sosial çarx hazırlanmış, bir araşdırma aparılmışdır. Bu layihələrin həyata keçirilməsi nəticəsində 4368 nəfər birbaşa faydalanmışdır. | | | | |
| 4.1.2. | Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflərin hazırlanması | Hazırlanan təkliflər paketi | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016 |

| | | | | |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamə”yə əlavə və dəyişikliklərin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatına təqdim olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnaməyə əlavə və dəyişikliklərin edilməsində məqsəd Şuranın qarşısında dayanan vəzifələrin daha təkmil qaydada həyata keçirilməsindən, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin idarəetmə əsaslarının təkmilləşdirilməsindən və ötən dövr ərzində əldə olunan təcrübədən çıxış edərək bu sahədə meydana gələn tələbatın qanunvericilikdə nəzərə alınmasından ibarətdir. | | | | |
| 4.1.3. | “Açıq hökumət tərəfdaşlığı” vətəndaş cəmiyyəti platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi | Platformanın yaradılması və fəaliyyətinin təmin edilməsi üzrə tədbirlər | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016 |
| 09 sentyabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası “Açıq hökumət tərəfdaşlığı, Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması”nın təsis yığıncağını keçirmişdir. Təsis yığıncağında Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Ədliyyə Nazirliyinin, Vergilər Nazirliyinin, Maliyyə Nazirliyinin, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının, qeyri-hökumət və beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri iştirak etmişdilər. 9 dövlət qurumu və 31 qeyri-hökumət təşkilatının nümayəndələrinin iştirakı ilə yığıncaqda Açıq Hökumətin Təşviqinə dair “Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması”nın yaradılması barədə Memorandum imzalanmışdır. Platformanın fəaliyyəti informasiya əldə etmək, fiskal şəffaflıq, ictimai təşkilatçılıq üzrə Azərbaycan hökuməti, Milli Məclis və Təşəbbüsdə maraqlı olan qurumlar ilə əməkdaşlıq etmək, “Açıq Hökumət” Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində Azərbaycanın vətəndaş cəmiyyətini təmsil etmək və Azərbaycan hökumətinin hazırladığı Fəaliyyət Planının həyata keçirilməsinin monitorinqini aparmaq, elektron hökuməti təşviq etməkdən ibarətdir. Yığıncaqda Platformanın reqlamenti də qəbul olunmuşdur. Platformanın funksiyaları və fəaliyyətinin digər məsələləri Platformanın Reqlamenti ilə tənzimlənir və onun fəaliyyəti açıq səsvermə ilə seçilən Platformanın koordinatoru tərəfindən əlaqələndirilir. Platformaya üzvlük bu təşəbbüsü dəstəkləyən hər bir vətəndaş cəmiyyəti, parlament və hökumət təmsilçisi üçün açıqdır və bütün üzvlər bərabər hüquqlara, vəzifələrə malikdirlər.<br><br>03 oktyabr 2016-cı il tarixdə Açıq Hökumətin Təşviqinə Dair Hökumət – Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının toplantısı keçirilib. QHT-lərin üzləşdikləri problemlərin müzakirəsinə həsr olunan toplantıda Platforma üzvü olmayan QHT-lər və beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri də iştirak ediblər. Toplantıda QHT-lərin üzləşdirkləri problemlər müzakirə olunmuş və 2014-cü ilin sonunda və 2015-ci ildə QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyə edilən əlavə və dəyişikliklərin praktikada tətbiqi zamanı | | | | |

yaranan problemlərin həlli ilə bağlı təkliflər müzakirə edilmişdir. Vətəndaş cəmiyyətinin səmərli fəaliyyətinə nail olunması üçün “yol xərtiəsi” hazırlanmasının vacibliyi vurğulanmış və müzakirələr zamanı QHT-lərin üzləşdikləri müxtəlif problemlər qaldırılmış, onların həlli yolları, normativ-hüquqi bazada dəyişiklikləri nəzərdə tutan təkliflər irəli sürülmüşdür. Ümumilikdə, müzakirələr zamanı 27 QHT nümayəndəsi çıxış edərək, bu və ya digər məsələlərlə bağlı rəylərini bölüşmüşdülər.

Platformanın 03 oktyabr 2016-cı il tarixli toplantısının yekunu ilə bağlı təqdim edilmiş təkliflər paketi Hökumət tərəfindən nəzərdən keçirilmiş, “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nda dəyişikliklərdə Platformanın bir sıra təklifləri nəzərə alınmışdır. Platformanın koordinatoru Əliməmməd Nuriyev və Platformanın üzvü Avrasiya Əməkdaşlıq Fondunun icraçı direktoru Nailə Həşimova 07-09 dekabr 2016-cı il tarixdə keçirilən OGP-nin 4-cü qlobal Paris sammitində iştirak ediblər.

Açıq Hökumət Tərəfdaşlığı Zirvə Toplantısının proqramında qeyd olunmuş tədbirlərdən əlavə İcraiyyə Komitəsinin keçmiş üzvü, Moldova təmsilçisi Veronika Cretunun vasitəçiliyi ilə Azərbaycan nümayəndə heyətinin İcraiyyə Komitəsinin yeni üzvü və Vətəndaş cəmiyyəti üzrə bölmə üzvləri ilə tanışlıq görüşü keçirilib. Söhbət əsnasında Azərbaycan nümayəndə heyəti ilə ayrıca iclasın keçirilməsinin vacibliyi qeyd edilib.

Azərbaycan nümayəndələrinin bu təşəbbüsü nəticəsində 08 dekabr 2016-cı il tarixdə Açıq Hökumət Tərəfdaşlığı Platformasında Vətəndaş Cəmiyyəti İştirakçılığı üzrə direktoru Paul Maassen, Təbii Resurslar İdarəetmə İnstitutunun nümayəndəsi xanım Suneeta Kaimal və İnkişaf üçün Nəticələr nümayəndəsi cənab Nathaniel Heller ilə görüş keçirilib. Azərbaycan tərəfindən görüşdə Əliməmməd Nuriyev, Nailə Həşimova, Şəhla İsmayıl, Samir Əliyev, Qubad İbadoğlu və Zöhrab İsmayıl iştirak ediblər. Müzakirələr zamanı cənab Paul Maassen AHT İcra Komitəsinin AHT Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılmasını məmnuniyyətlə dəstəklədiyini, eyni zamanda prosedur qaydalarının inkişaf etdirilməsinin vacibliyinin vurğulayıb və həmçinin QHT-lərin fəaliyyətini və qrantların verilməsini tənzimləyən qanunvericiliyə dəyişikliklər edilməsinin vacibliyini qeyd edib.

10 dekabr 2016-cı il tarixində Platforma üzvlərinin, eyni zamanda üzv olmayan qeyri-hökumət və beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələrinin iştirakı ilə Platformanın yığıncağı keçirilib. Yığıncaqda Platormanın məqsədi, fəaliyyəti, prinsipləri ilə bağlı bəyanat layihəsi müzakirəyə təqdim edilib və irəli sürülən təkliflər nəzərə alınmaqla Açıq Hökumətin Təşviqinə Dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının Bəyanatı qəbul olunub.

Şuranın maliyyə, Platformanın isə texniki, ekspert dəstəyi ilə “İnformasiya, Təhlil, Planlaşdırma” İctimai Birliyi tərəfindən strateq.az saytında “Azərbaycanda Açıq Hökumət Təşəbbüsü” və “Güzəran Sosial Araşdırmalar” İctimai Birliyi tərəfindən isə istiqlal.az saytında “MHŞT” adlı ayrıca veb-səhifə yaradılıb.

<table>
<tr><td>4.2.3.</td><td>İstehlakçıların hüquqlarının qorunması məqsədi ilə ictimai nəzarət mexanizmlərinin hazırlanması, bu məqsədlə yaradılmış qaynar xəttin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi</td><td>İctimai nəzarət mexanizmlərinin tətbiqi, qaynar xətt vasitəsilə qəbul edilmiş müraciətlərin sayı və həyata keçirilmiş maarifləndirmə tədbirləri</td><td>Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası</td><td>2016-2018</td></tr>
<tr><td colspan="5">2016-cı ildə Şura tərəfindən keçirilən qrant müsabiqələri çərçivəsində ictimai həyatın bir sıra aktual məsələləri, o cümlədən “İstehlakçıların maarifləndirilməsi və hüquqlarının qorunmasına dair təşəbbüslər” istiqamətində layihə təklifləri maliyyələşdirilmişdir. “İstehlakçıların maarifləndirilməsi və hüquqlarının qorunmasına dair təşəbbüslər” istiqamətində 6 qeyri-hökumət təşkilatının layihə təkliflərinə Şura tərəfindən 48 000 (qırx səkkiz min) manat vəsait ayrılmışdır. Layihələrin icrasına 25 nəfər cəlb olunmuşdur. Bakı, Sumqayıt və Şirvan şəhərlərində, Beyləqan, Cəbrayıl, Hacıqabul, Siyəzən, Quba, Qusar, Xaçmaz, Oğuz və Sabirabad rayonlarında ümumilikdə 42 tədbir keçirilmişdir. Layihələr çərçivəsində 4 ədəd buklet, 2 ədəd flayer, plakatlar və 1 televiziya verilişi hazırlanmışdır.</td></tr>
<tr><td colspan="5">5. Maliyyə şəffaflığının təmin edilməsi</td></tr>
<tr><td>5.6.</td><td>Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi</td><td>Satınalmalarla bağlı məlumatların açıqlanması</td><td>Mərkəzi və yerli icra hakimiyyəti orqanları, iqtisadiyyat Nazirliyi, aidiyyəti büdcə təşkilatları</td><td>2016-2018</td></tr>
<tr><td colspan="5">Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının cssn.gov.az saytı Azərbaycan Respublikasının “İnformasiya əldə etmək haqqında” Qanununa və “Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər”inə uyğun olaraq təkmilləşdirilərək yeni dizaynda hazırlanmış və istifadəçilərin sərəncamına təqdim olunmuşdur. Eyni zamanda bu saytda Şuranın keçirtdiyi açıq tender və katirovkalara dair elan və bildirişlərdən ibarət Tenderlər bölməsi yaradılmışdır.</td></tr>
<tr><td colspan="5">11. Fəaliyyət Planının icrasının monitorinqi və nəzarətin təşkili</td></tr>
<tr><td>11.5.</td><td>Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi</td><td>Dəstəklənmiş layihələrin sayı</td><td>Azərbaycan Respublikasının Prezidenti yanında</td><td>2016-2018</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | | | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | |

Fəaliyyət Planında açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi, “Açıq Hökumət Tərəfdaşlığı” Vətəndaş Cəmiyyəti Platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi, Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi kimi məsələlər Şuraya təhkim olunmuşdur. Fəaliyyət Planına uyğun olaraq, Şuranın təşkilatçılığı ilə 09 sentyabr 2016-cı ildə dövlət qurumları və QHT təmsilçilərinin iştirakı ilə Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması təsis edilmişdir.

Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının təqdimatı və Azərbaycanın Açıq Hökumət Tərəfdaşlığı (AHT) Beynəlxalq Təşəbbüsündə iştirakı ilə bağlı məlumatlandırma məqsədilə regionlarda tədbirlər keçirilmişdir. Lənkəran və Gəncə şəhərlərində, Şəki, Sabirabad və Xaçmaz rayonlarında keçirilən tədbirlərdə yerli dövlət qurumlarının, QHT-lərin təmsilçiləri və digər ictimaiyyət nümayəndələri iştirak etmişdilər. Tədbirlərdə Şura üzvü, platformanın koordinatoru Əliməmməd Nuriyev “Azərbaycanda Açıq Hökumət Təşəbbüsünün tətbiqi: Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması”mövzusunda məruzə ilə çıxış edərək görülən işlər, vətəndaş cəmiyyətinin bu proseslərdə iştirakı barədə ətraflı məlumat vermişdir. Ə. Nuriyev çıxışında 9 dövlət qurumunun və 31 QHT-nin iştirakı ilə yaradılan Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının missiyası və fəaliyyət istiqamətlərinə də geniş yer ayırmışdır. Qeyd edərək bildirmişdi ki, Platformanın yaradılması Açıq Hökumət Tərəfdaşlığı Təşəbbüsündən irəli gələn islahatların həyata keçirilməsinə, bu istiqamətdə mümkün çətinliklərin dəf olunmasına,islahatlara ictimai etimadın artırılmasına əhəmiyyətli şəkildə yardım göstərməyə imkan verəcək. Eyni zamanda Platforma Açıq Hökumət Tərəfdaşlığı təşəbbüsünün ideya və məqsədlərinin geniş auditoriya tərəfindən aydın, düzgün qavranılması, daha səmərli nəticələrə nail olunması üçün vacib əlverişli mühitin yaradılmasına köməklik göstərəcək. Platformanın koordinatoru həmçinin qeyd edib ki, vətəndaşların Azərbaycanda Açıq Hökumətin təşviqi ilə bağlı həyata keçirilən işlərdə fəal iştirakı mühüm əhəmiyyətə malikdir. Çünki bu səylərin hədəfi məhz vətəndaşların qərarların qəbulu prosesinə daha geniş cəlb edilməsi, onların dövlət orqanlarının fəaliyyəti barədə daha asan məlumat əldə edə bilməsi, hesabatlılıq və şəffaflığın daha yüksək səviyyədə təmin olunmasıdır. Keçirilən tədbirlərdə iştirakçıların sosial, iqtisadi və hüquqi mövzulara aid sualları dacavablandırılmışdır.

Fəaliyyət Planının icrasından irəli gələrək 2016-cı il ərzində Şura tərəfindən həyata keçirilən qrant müsabiqələri üzrə açıq hökumətin təşviqi və mədən sənayesində şəffaflığın artırılması, “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”ndan irəli gələn məsələlər, şəffaflıq və institusional məsələlər, istehlakçıların maarifləndirilməsi və hüquqlarının qorunması mövzuları üzrə 32 layihənin icrasına dövlət büdcəsi hesabından 288 000 (iki yüz səksən səkkiz min) manat vəsait ayrılmışdır.